# Xatirə Kitabının II cildi də çap və təqdim olundu...

***Rəşad Məcid:** "Hər birimiz zəfərə layiq olmalıyıq"*

***Nəzakət Məmmədova:** "Respublika Xatirə Kitabı Redaksiyası xalqımıza böyük Zəfər bəxş edən bu cəsur oğulların adlarının əbədiləşdirilməsi məqsədilə ümdə iş görür, redaksiya bu prosesi öz üzərində bir məsuliyyət kimi hiss edir"*

***Şəhid anaları:** "Bizi yıxıb gedən oğullar Vətəni ayaq üstə tutdular"*

**Tədbir hələ başlamamışdı, ağsaçlı şəhid anası özü-özünə pıçıldayırdı:**









Analar anar ağlar,
Tellərin sanar ağlar.
Dönər göy göyərçinə
Yollara qonar ağlar...

Yanağından yaş süzülürdü ananın, bağrına basdığı kitaba tökülürdü kipriyindən axan qəm, qüssə. Yamandır ayrılıq, balanı anadan, ananı baladan ayıran fələk necə də amansızdır, zalımdır...

Fələk, sənlə düz dolana bilmirəm
Məni dönüb-dönüb yaralayıbsan...

Qara geyimli, ağbirçəkli şəhid anaları, beli bükük şəhid ataları, boynuburuq şəhid balaları, gözüyaşlı şəhid həyat yoldaşları həmişə olduğu kimi yenə də bir yerə cəm oldular. Onları təkcə oxşar dərdləri birləşdirmir, həm də əyilməz qürurlarının təntənəsi olan əziz övladlarının ruhu birləşdirir. Keçən həftə M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın Böyük Akt zalında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının böyük zəhmətlə ərsəyə gətirdiyi "44 gün - Tarixi zəfər" adlı kitabın F-L hərfləri üzrə II cildinin təqdimatı keçirildi.

Keçən yazılarımızda qeyd etdiyimiz kimi, bu kitablar həm də bir abidədir, şəhidlərimizin ölməz ruhunun ehtiva olunduğu abidə. Bildirək ki, kitab 44 günlük Vətən müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə çap edilib. Kitabda 1000-ə yaxın şəxs haqqında ensiklopedik məlumat yer alıb.

Əslində, bu redaksiya tarix yaradan oğulların tarixini yazıb sənədləşdirir ki, sabah o təkzibolunmaz məlumat bankı kimi daim istinad yerinə çevirilsin. Redaksiyanın gördüyü işlər mislilsizdir. Nəzakət Məmmədovanın rəhbərliyi ilə çox məhsuldar fəaliyyət göstərən Xatirə Kitabının ərsəyə gətirdiyi "44 gün - Tarixi zəfər" adlı kitabın F-L hərfləri üzrə II cildinin təqdimatında şəhid ailələri, qazilər, Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Hərbi Prokurirluğun, Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətlərinin nümayəndələri, ölkənin tanınmış ziyalıları iştirak edirdi.

Azərbaycanın qələbəsinin bizim hamımızın üzərinə böyük yük qoyduğunu deyən Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki, hər kəs bu sahədə öz üzərinə qoyulan məsuliyyəti dərk etməli və şəhidlərimizin xzatirəsinin yaşadılması üçün əlindən gələni etməlidir. "Hər birimiz zəfərə layiq olmalıyıq, zəfərimizə xidmət etməliyik. Nəzakət xanımın rəhbərliyi ilə şəhdilərin adlarının, xatirələrinin əbədiləşdirilməsi üçün böyük işlər görülür. Burada Nəzakət Məmmədovanın böyük əməyini vurğulamaq istəyirəm. Təqdimatına yığışdığımız "44 gün - Tarixi zəfər" adlı kitabın ikinci cildi də görülən işlərdən biridir"- deyə R.Məcid qeyd etdi.

R.Məcid sonra sözü Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədovaya verdi. "Əziz şəhid anaları, şəhid ailələri, hörmətli tədbir iştirakçıları!

Xalqımız tarixi anlar yaşayır. Cənab Ali Baş Komandanın və Müzəffər Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində illərdir şəhid qanı ilə suvarılan torpaqlarımız artıq azaddır. Əlbəttə, müharibə qansız-qadasız ötmür, şəhidlərimiz var... Respublika Xatirə Kitabı Redaksiyası xalqımıza böyük Zəfər bəxş edən bu cəsur oğulların adlarının əbədiləşdirilməsi məqsədilə ümdə iş görür, redaksiya bu prosesi öz üzərində bir məsuliyyət kimi hiss edir.

Məlumat üçün diqqətinizə çatdırım ki, Azərbaycan Sovet Ensiklopediyası nəzdində bir şöbə kimi fəaliyyət göstərən Respublika Xatirə Kitabı Redaksiyası Nazirlər Kabinetinin 21 avqust 1991-ci il tarixli 277 saylı qərarı ilə müstəqil quruma çevrilib, ölkəmizin ictimaisiyasi və mədəni həyatında çox nəcib və müqəddəs bir missiya yerinə yetirir. Heydər Əliyevin imzaladığı 23 dekabr 1997-ci il tarixli "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Qanunla Respublika Xatirə Kitabı redaksiyası (ayrıca bənddə) dövlət büdcəsinə daxil edilib. Kitabın bütün sayları "Heydər Əliyev - Respublika Xatirə Kitabının yaradıcısıdır!" sözləri ilə açılır, kitabda dahi rəhbərin portreti canlanır.

Xatirə Kitabının cildlərində İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız haqqında əhatəli materiallar dərc edilir. Bu ensiklopedik kitab ölkəmizin insan resurslarını əbədiləşdirən mühüm tarixi sənədə çevrilib.

2017-ci ildə Respublika Xatirə Kitabı Redaksiyası Dövlət Təhlükəsizlik Xidməti nəzdində fəaliyyət göstərən "Əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası"nın İşçi qrupu ilə birgə Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonlara hücumu, torpaqlarımızın işğalı zamanı əsir və girov götürülmüş, həmçinin naməlum şəraitdə itkin düşmüş hərbçi və mülki şəxslərin sonrakı taleləri araşdırılıb və dörd cilddən (iki cildə) ibarət kitab hazırlanıb.

Respublika Xatirə Kitabı Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" seriyasından kitablar nəşr edir, hazırda layihə üzrə işlər davam etdirilir.

Respublika Xatirə Kitabı Redaksiyası, həmçinin, "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında 8 sənədli film çəkib. Bu filmlərin 4-ü geniş ictimaiyyətə təqdim olunub.

Respublika Xatirə Kitabının Vətən müharibəsində həlak olmuş üç min şəhidlə bağlı "44 gün - Tarixi zəfər" adlı çoxcildliyi hazırlanır. Məlumat üçün bildirim ki, çoxcildliyin birinci cildində A-Ə hərfləri üzrə xronoloji olaraq Aprel döyüşləri, Tovuz hadisələri və Vətən müharibəsində həlak olan 934 şəxs haqqında ensiklopedik bilgi verilib.

Hazırda kitabın ikinci cildinin təqdimatına toplaşmışıq. Kitabda sırf Vətən müharibəsində həlak olmuş, F-L hərfləri üzrə adları sıralanmış şəxslər barədə ensiklopedik məlumat verilib, digərlərinin də adlarının əbədiləşdirilməsi istiqamətində növbəti cildlər üzərində işlər görülür.

Xatirə kitabının ikinci cildində adları yer alan şəxslərdən doqquz nəfər göstərdiyi xüsusi şücaətə görə Vətən Müharibəsi Qəhrəmanı adı ilə təltif edilib, onlardan beşinin ailəsi hazırda bu tədbirdə iştirak edir.

Kitabda haqqında ensiklopedik məlumat verilmiş bir nəfər isə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Allahdan bütün şəhidlərimizə rəhmət, yaxınlarına səbr arzulayırıq"-deyə Nəzakət Məmmədova bildirdi.

Kövrək notlar, nostalji duyğular, göz yaşı içində keçən tədbirdə danışan Emil İsgəndərovun anası Tənzilə İsgəndərova da çıxış etdi. Rejissor və ssenarist Vüsal Nurunun aparıcılığı ilə davam edən tədbirdə danışan Tənzilə xanım "Bizə heç demədi ki, müharibəyə gedir. Uşaqlıqda oyuncaq avtomatla çox oynayırdı, fikri-zikri hərbi paltarda idi. Emilin nəşini çox axtardıq, 11 gündən sonra tapdıq. İki oğlu qalıb. Körpəsinin 4 ayı günü Emili torpağa tapşırdıq"-deyə bildirdi.

*(Ardı 13-cü səh.)*

*(Əvvəli 12-ci səh.)*

Tənzilə xanım dedi ki, oğulları vətən üçün yetişdirən valideynlərin ürəkləri yansa da, qəhrəman oğullarla fəxr edirlər.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və hərbi qulluqçuların ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova da çıxışında şəhidlərimizin ruhlarının əbədiləşdirilməsi üçün bu cür nəşrlərin əhəmiyyətindən danışdı. Bildirdi ki, hər birimiz şəhidlərimizlə fəxr edirik. Şəhid ailələrinə dövlət tərəfindən göstərilən qayğı və diqqətin yüksək olduğunu deyən Z.Səmədova əlavə etdi ki, Xatirə Kitabı Redaksiyasının gördüyü işlər təqdirəlayiqdir.

Hərbi Prokurorluğun nümayəndəsi Firad Əliyev də çıxışında şəhid analarını, şəhid ailələrini salamladı: "Sizin qarşınızda çıxış etmək çox çətin və şərəflidir. Çünki sizin övladlarınız damlası düşmənin bütün vücudundan qiymətli olan qanları ilə tarix yazdılar. Bizim hamımızın başını uca etdilər, ləkəni alnımızdan götürdülər".

Vüsal Nuru isə bildirdi ki, şəhidlərimizin adlarının əbədiləşdirilməsi sahəsində üzərimizə düşən işi hər birimiz canlabaşla yerinə yetiririk. "Respublika Xatirə Kitabı Redaksiyası şəhidlərimizin adlarını təkcə kitablar çap etməklə əbədiləşdirmir, o həm də öz üzərinə daha



böyük məsuliyyət götürüb. Xatirə Kitabı Redaksiyası heyəti olaraq şəhidlərimiz barədə silsilə filmlər çəkirik. Nəzakət Məmmədovanın layihə müəllifi olduğu filmlər "Vətən daşı" silsiləsindən çəkilir. Vətən daşı vətəndaşdan da daha irəli gedən bir yolu göstərir. Hər bir vətəndaşın vətən daşı olması çox qürurlu bir məsələdir. Şəhidlərin məzar daşı bizim istinad yerimizdir, müqəddəs məkanımızdır. Biz üzümüzü onların daşına tutub onunla qürurlanırıq"-deyə V.Nuru vurğuladı.

Tədbirdə şəhid Ömər Rəhimlinin həyatı, keçdiyi döyüş yolundan bəhs edən "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "Vətən daşı..." sənədli filmi də göstərildi. Filmlərin layihə rəhbəri Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədova, rejissoru və ssenari müəllifi Vüsal Nurudur. V.Nuru bildirdi Ö.Rəhimli haqda fikmin təqdimatı təsadüfi deyil, bu 18 yaşlı bir Azərbaycan igidinin nümunəvi qəhrəmanlığının ifadəsidir.

Şəhid kapitan Ceyhun Həsənovun bacısı Xatirə Həsənova bildirdi ki, qardaşı Füzuli döyüşlərinin ilk günlərində Füzulidə şəhid olub. "Ohanyan səddi"ni yararkən haqqın dərgahına qovuşan şəhidin bacısı qardaşının misilsiz qəhrəmanlığından, vətənpərvərliyindən danışdı.

Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda



canından-qanından keçərək şəhidlik zirvəsinə ucalan Azərbaycan Ordusunun hərbi qulluqçularından biri olan mayor Taleh Kərimovun həyat yoldaşı Nəzakət İsmayılova da çıxış etdi. Həyat yoldaşının cəsurluğundan söhbət açan N.İsmayılova əlavə etdi ki, Sumqayıtdakı şəhid ailələri hamısı bir-birinə dayaq durur, bir-birinin acısını ovutmağa çalışır. Tədbirdə 44 günlük vətən müharibəsində şəhid olan Sumqayıt şəhidləri Əlizaminin, Səbuhinin anaları, Şəhriyar Quliyevin həyat yoldaşı da çıxış etdi. Analar dedilər ki, onlar onsuz da dirigözlü ölüblər, balalarını yaşatmaq üçün ayaq üstə dayanırlar. Şəhid anaları "Bizi yıxıb gedən oğullar Vətəni ayaq üstə tutdular. Biz yaşayaya ölən analarıq. Biz bir tək o oğulları yaşatmaq üçün yaşayırq" dedilər.

Qara yaylıqlı, dili ağılı-bayatılı şəhid anaları, beli bükülsə də qüruru yenilməyən şəhid ataları, şəhid atalarına şeir qoşan körpə balalar, dilsiz-ağıssız gəlinlər, o oğullar sizi yıxıb getsələr də, Vətəni ayaqüstə tutdular, millətin qırılan qürurunu sağaltdılar. Onlar ölməzdirlər. Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Xatirə Kitabı Redaksdiyası o, oğulların adlarını əbədiyən yaşatmaq üçün belə nəfis cildliklər çap edir, filmlər çəkir. Hər kitab bir tarixdir, hər film bir hadisədir...

Respublika Xatirə Kitabı Redaksiyasına uğurlar arzu edirik.

***İradə SARIYEVA***